# Qəbələdə təntənəli Novruz şənliyi

***Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramı münasibətilə Qəbələdə ümumrayon şənliyi keçirilib.***

***Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz ümumxalq bayramı kimi hər il rayonumuzda müxtəlif el şənlikləri və mərasimləri ilə qarşılanır. Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında keçirilən Novruz şənliyində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də rayon ictimaiyyəti iştirak edib.***



Bayram tədbirində rayon icra hakimiyyətinin başçısı xalqımızın ən əziz bayramlarından biri olan Novruz münasibətilə Qəbələ ictimaiyyətini təbrik edib.

Təbrik nitqində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın bir çox adət-ənənələrinin, bayramlarının yenidən bərpa edildiyi qeyd olunub, onun milli-mənəvi dəyərlərimizə həmişə böyük hörmətlə yanaşdığı və qorunub saxlanılmasına daim diqqət və qayğı göstərdiyi vurğulanıb. Eləcə də Novruz bayramının ölkəmizdə rəsmi qaydada keçirilməsinin məhz ulu öndərin adı və onun vətənpərvər, millətsevər fəaliyyəti ilə bağlı olduğu diqqətə çatdırılıb. Təbrik nitqində bu qədim bayramın insanları xeyirxahlığa çağırdığı, onlarda sabaha inam hissi yaratdığı, xalqı nəcib əməllərə səslədiyi qeyd olunub.





Ululuq və ağsaqqallıq rəmzi sayılan "Dədə Qorqud", yazın müjdəçisi olan "Bahar qız" mərasimdə qəbələliləri təbrik edərək xalqımıza yeni ildə bol ruzi-bərəkət və əmin-amanlıq arzulayıblar.

Qədim ənənələrimizin canlandırıldığı teatrlaşdırılmış Novruz şənliyində Dədə Qorqud bayram tonqalını qalamaqla bu şad gündə el-obanı birliyə, həmrəyliyə dəvət edib.

Daha sonra rayon rəhbərliyi və qonaqlar Novruzun özənəməxsus xüsusiyyətlərini və milli adətənələrimizi əks etdirən sərgilər ilə tanış olublar. Sərgilərdə rayonun xalq sənətkarları tərəfindən hazırlanan əl işləri, dekorativ tətbiqi-sənət və rəsm nümunələri, eləcə də Qəbələdəki emal müəssisələrində istehsal edilən sənaye və ərzaq məhsulları nümayiş olunub.

Bayram mərasimində sərgilənən çoxəsrlik etnoqrafik maddi mədəniyyət irsi, qədim milli adətənələrimizi özündə əks etdirən eksponatlar və digər əşyalar tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Tədbirdə mədəni-maarif müəssisələrinin kollektivləri tərəfindən hazırlanan müxtəlif milli oyunlar və folklor nümunələri nümayiş etdirilib.

Parkın digər tərəfində isə yeni-



yetmə və gənc idmançılar müxtəlif idman numunələri ilə çıxış ediblər. Cəngi sədaları altında gənc pəhləvanlar öz məharətlərini göstəriblər.

Tarixi min illərlə ölçülən, mənəvi irsimizi, mədəni dəyərlərimizi, milli xarakter və düşüncəmizi, həyat tərzimizi özündə ehtiva edən ənənələrlə zəngin Novruzun gəlişi münasibətilə təşkil olunan bayram şənliyi qəbələlilər tərəfindən böyük maraqla qarşılanıb.

Novruz atributları ilə bəzədilən parkda keçirilən bayram tədbiri rayonun mədəniyyət işçilərinin hazırladıqları maraqlı konsert proqramı ilə davam edib. Sənətçilərin ifasında bir-birindən gözəl xalq musiqilərimiz, Novruz mərasimini tərənnüm edən nəğmələr səsləndirilib. Novruzun əsas personajları olan Kosa və Keçəlin bir-birindən maraqlı çıxışları tamaşaçılarda xoş ovqat yaradıb. Bum qəsəbə Yaradıcılıq Evi "Zopu-zopu" folklor etnoqrafik rəqs ansamblının rəngarəng çıxışları tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Səyyar görüş-qəbul keçirilib

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin əhali ilə növbəti görüş-qəbulu martın 27-də Yengicə kəndində keçirilmişdir.***

***Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.***

Rayon icra hakimiyyətinin başçısı görüş iştirakçılarına Prezdent İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan quruculuq-abadlıq işlərindən, həyata keçirilən sosialyönümlü islahatlardan, iqtisadi sahədə əldə olunan uğurlardan danışmışdır.

Ölkədə gedən geniş quruculuq işlərinin əyani nümunəsini Qəbələnin, o cümlədən Yengicə kəndinin timsalında görməyin mümkün olduğunu vurğulayan RİH-nin başçısı bildirilmişdir ki, Prezident İlham Əliyevin sərəncamı ilə Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun müasir tələblərə cavab verən səviyyədə yenidən qurulması, ərazidə yeni müasir standartlara cavab verən məktəb binasının tikintisi, təbii qazın çəkilişi, elektrik təchizatının yenilənməsi, yaşayış məntəqəsinin içməli və suvarma suyu ilə təmin olunması əraziyə göstərilən diqqətin əyani təzahürüdür.





Qeyd olunmuşdur ki, 2014-cü ildə ölkə başçısının iştirakı ilə kənddə "Qafqaz Thermal Hotel" –müalicə istirahət kompleksi açılmışdır. İşçilərinin əksəriyyəti kənd sakinləri olan kompleksdə əhalinin bütün təbəqələrinin müalicəvi sudan istifadə edə bilməsi üçün hər cür şərait yaradılmışdır.

Tədbirdə çıxış edənlər rayonda görülmüş böyük quruculuq işlərinə, və son illər kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən qayğının artırılmasına görə ölkə başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Görüş-qəbulda iştirak edən kənd sakinlərindən Əlövsət İbrahimov, Elsevər Nəbiyev, Əsmər Nəzirova, Nabir Qəhrəmanov və başqaları əraziyə əlavə işıq transformatorunun qoyulmasını, işıq dirəklərinin dəyişdirilməsini, yeni artezian quyusunun qazılmasını, kəndarası yolların təmir edilməsini, yaşayış məntəqəsinə internet xəttinin çəkilməsini xahiş etmişlər.

Təklif və müraciətlərin bir qismi yerindəcə həll olunmuş, digərləri barədə qanunamüvafiq qaydada tədbir görülməsi üçün aidiyyatı vəzifəli şəxslərə lazımi tapşırıqlar verilmişdir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**